Kirman Rüstəmli

## Adsız Şeir

Çox gözəl dolaşır cənnət bağında,
Yüzü yığışsa da sən ola bilməz.
Şamama yetişib atlaz tağında,
Əl atıb dərməmiş o sola bilməz.

Gülüş cilvələnir dodaqlarında
Yanağın lalədir rəngi silinməz
Hər sözün vədəsi əhd ilqarında
Üz-üzə göz-gözə zaman bilinməz.

Varlığım dəyərim sənsən həyatda
Zühurun zülməti nura boyadı.
Qarşıma çıxdığın həmin saatda
Sandım ki gerçəyim yuxu röyadı.

Sevginin meyarın ölçmək olmayır
Tanrı yaratmayıb belə bir cihaz.
Adəmin dərdiyi alma qalmayır,
Biz ondan dişləyək azacıq bir az.

Qismət axtarmadım qismət içində,
Sən demə qismətim özü gələrmiş.
Nə yolda dayandım nə də bir tində,
Sən gələn yollara gülüm ələnmiş.